

- Təsviri sənət nümunəsi bizi hər yerdə müşayiət edir, həyatımızı gözəlləşdirir, məişətimizə rövnəq verir. Rəssamlığa olan həvəsim də məhz buna görədir, - deyə Elçin Muradov sənət aləminə gəlişini belə mənalandırır...

# Gerçəkləşən arzular

**Elçinin rəssamlıq arzusu Xırdalandakı 1 saylı orta məktəbdə oxuduğu vaxt yaranıb. Bir gün o, məktəbin rəsm müəllimi Mahmud Çələbovun yanına gəldi və ona özünün "Mehdi Hüseynzadə", "Babək" portretlərini, bir neçə mənzərə və natürmortunu göstərdi.**

Mahmud müəllim rəsmləri bəyənib dedi:

- Elçin, bu yaxınlarda məktəbimizdə şagirdlərin əl işlərindən ibarət yaradıcılıq sərgisi açılacaq, sənin də rəsmlərini nümayiş etdirərik.

Sərgiyə gələnlər Elçinin rəsmlərinə yüksək qiymət verdilər. Bu müvəffəqiyyət rəsm həvəskarını arxayınlaşdırmadı. O, 1972-ci ildə Yuri Qaqarin adına pioner və məktəblilər sarayındakı rəsm dərnəyinə üzv yazıldı. Vətənimizin adlı-sanlı fırça ustaları M. Abdullayev, T. Salahov, Maral Rəhmanzadə, S. Salamzadə və başqaları ilk yaradıcılıq addımlarını bu məktəbdə alıblar. Bunları Elçin yaxşı bilirdi. Dərnəyin rəhbəri Sadıq Bağırov E. Muradovda istedad olduğunu görüb, ona qayğı və tələbkarlıqla yanaşır, "Pioner" jurnalının 1974-cü ilin 4-cü nömrəsində Sadıq müəllimin Elçin haqqında aşağıdakı sözlərini oxuyuruq: *"Hər bir müəllim yetirmələrin müvəffəqiyyətini görəndə sevinir. Bu təbiidir. Elçin rəngləri gözəl duyur, vəziyyəti yaxşı görür, hər mövzuya özünəməxsus nəzərlə yanaşır. Elçin orta məktəbi bitirdikdən sonra Razin qəsəbəsindəki rəssamlıq təmayüllü texniki məktəbə qəbul oldu.*

*O, rəssamlığın şüşə üzərində naxış çəkmək - vitrai növünə də böyük maraq göstərirdi. Təsviri incəsənətin bu janrı şəbəkəyə çox yaxındır. Burada sənətkardan dəqiqlik, həndəsi çoxbucaqlıların yerli-yerində işlədilməsi tələb olunur.*

*Elçin Muradov texnikumu bitirdikdən sonra 1980-ci ildə Abşeron Rayon Mərkəzi Kitabxanasında rəssam kimi fəaliyyət göstərmişdir"...*

Elçin Muradov 1958-ci ildə Xırdalan qəsəbəsində anadan olmuşdur. Artıq 7-8 yaşlarından şəkil çəkməyə başlamışdır. İlk çəkdiyi şəkil isə mənzərə təsviri olub. Xırdalandakı pionerlər evində Çingiz müəllimin köməkliyi ilə sənətin sirlərini öyrənib.

***- Elçin, rəssamlıq sənətinə belə mükəmməl yiyələnməyinizdə kimlərə borclusunuz?***

- Bunu qeyd etməmək, məncə, ədalətsizlik olardı ki, Y. Qaqarin adına pioner və məktəblilər sarayında gözəl istedadlı müəllimlər-Əlisəttar və Sadıq müəllim mənə bu sənəti davam etdirməyə böyük köməklik göstərdilər. 1976-cı ildə, nəhayət öz arzuma çatdım, rəssamlıq təmayüllü texniki məktəbə (indiki Bakıxanov qəsəbəsindəki) qəbul oldum. 1978-ci ildə tam təhsil alaraq buranı bitirib hərbi xidmətə getdim.

Sənətimdən iyirmi il ayrılıb başqa işlərdə, vəzifələrdə işləməyimə baxmayaraq, heç bir vaxt yaddan çıxmayıb mənim sənətim. Yenə də öz əziz sənətimə qayıtmışam.

***- Rəssamlığın janrlarından ən çox hansını sevirsiniz?***

- Ən çox sevdiyim janr mənzərə janrıdır. Bəlkə də bu ondan irəli gəlir ki, Novxanı bağlarında, Xəzərin sahilində böyümüşəm. O vaxtlar dəniz və bağ mənzərələri çəkməkdən xoşum gəlirdi.

***- Sənət və sənətkarlıq haqqında nə deyə bilərsiniz?***

- Qısaca olaraq onu demək istərdim ki, sənətkarlar öz sənətini ürəkdən sevməsə, heç vaxt o sənət zirvəsinə qalxa bilməzlər!

Azərbaycanda bünövrəsini Əzim Əzimzadə qoymuş satirik karikatura janrını başqa rəssamlar kimi, Elçin Muradov da davam etdirir. Onun da yaradıcılığında karikatura janrı ilə rastlaşırıq.

Sumqayıt şəhərindən sonra E. Muradovun növbəti fərdi sərgiləri Xırdalan Mədəniyyət evində 2010-cu il dekabr ayının 31-də Dünya Azərbaycanlılarının Həmrəylik gününə və 2011 -ci il fevral ayının 2-də Gənclər gününə həsr olunmuş tədbirlər zamanı nümayiş etdirilmişdir. Tədbirdə çıxış edən Abşeron Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri İlham Manafov rəssam Elçin Muradovun yaradıcılığından danışaraq onu rəssamlıq sənətinin təbliğində fəal iştirakına görə fəxri fərmanla təltif etmişdir.

Tanınmış sənətşünas, əməkdar incəsənət xadimi Ziyadxan Əliyev rəssamın müxtəlif janrlarda işlənmiş sənət əsərlərindən söhbət açdı. Rəssamın içərisində Qarabağ mövzusuna, məcburi köçkün həyatına və gənclərin müasir dövrümüzdə tərbiyəsinin inkişafına təsir göstərən əsərlərə geniş yer verildiyini vurğuladı.

Rəssamın yaradıcılığında mənzərə, qrafika, portret janrları da geniş yer tutur.

"Azərbaycanskie izvestiya" qəzetində Eldar Hüseynovun "Elcin Muradovun rəngli palitrası" məqaləsində də onun rənglərdən məharətlə istifadə etməsindən, rənglərin işığından söhbət açır və Elçin Muradovun yaradıcılığına geniş yer vermişdir.

Sərgidə qoyulmuş rəy kitabında rəy yazarkən orada tanınmış rəssamların, xalq artistlərinin, musiqiçilərin, mədəniyyət işçilərinin rəyləri ilə yanaşı, Rusiyanın Azərbaycandakı səfirliyinin nümayəndəsi Yeliseyev Gennadiy Borisoviçin, Vadim Suxaryevin, Demokratik Azərbaycan Dünyası Partiyasının sədri M.Əlizadənin; sənətşünas əməkdar incəsənət xadimi Ziyadxan Əliyevin yazdıqları rəyləri oxudum və şad oldum.

Elçin Muradovun əsərləri respublika sərgisində, Azərbaycanın şəhər və rayonlarında keçirilən sərgilərdə nümayiş olunub.

Bu yaxınlarda rəssamın üç əsəri Moskva şəhərində MDB rəssamlarının sərgisində nümayiş etdirilib.

1981-ci ildə Azərbaycan televiziyasının "Gənclər" proqramında E.Muradovun yaradıcılığı haqqında maraqlı veriliş yayımlanmış, dövri mətbuatda bir çox məqalələr dərc olunmuşdur. Buna nümunə kimi "Abşeron", "XXI əsr", "Haqqın sədası" , "Qanun keşiyində", "Mədəniyyət", "Azərbaycanskie izvestiya" qəzetlərində və "Pioner" jurnalında dərc olunan materialları göstərmək olar.

**Biz Elçin Muradova gələcək işlərində yeni-yeni uğurlar arzu edirik. O günlər olsun ki, sərgilərinin sədası dünyanın müxtəlif ölkələrindən gəlsin.**

**Fərəc FƏRƏCOV**